

NOFƏL ÜMİD

## DƏRDİMİN ALOVU

Günəş ətrafı yandırır
Hərarətdən bezir insanlar
Kimi çətirlə
Kimi eynəklə
Kimi ağaclara sığınaraq
Sipər çəkir səmanın atəşinə.
Ətrafı yandıran günəş
Mənim dərdimdə qızdırır şəfəqlərini
Mənim içimi də dərd yandırır
Yandırır qəmin odu ürəyimi
Bəzən ocağın səsini çöldə də
duya bilirəm
Hərdən tüstüsü də çıxır
Mən isə ümidsizlikdən qurumuş
ümidlərimə bükdüyüm
Arzularımı yandırıram.
Mənim qaladığım tonqal daha böyükdür,
Günəşin hərarətindən də
Dərdlərimin sönməyən ocağından da

## RAHAT OLASAN

Göy üzünün qapısını,
Döyəsən rahat olasan.
Başını Tanrı önündə,
Əyəsən rahat olasan.

Tapasan xeyir izini,
Görməyəsə şər üzünü,
Hər yerdə sözün düzünü,
Deyəsən rahat olasan.

Nahaq keçib haqq səddini,
Tapmaq olmur söz mərdini,
Özün elə öz dərdini,
Yeyəsən rahat olasan.

Görməyib ömrün sonunu,
Çaldırasan son toyunu,
Nur saçan o ağ donunu,
Geyəsən rahat olasan.

## ŞAİR RUHU

Fırlanır başımda söz mirvarisi,
Necə düzməliyəm sapa, bilmirəm.
Bir şair ruhu var içimdə sanki,
Gəzib dolanıram tapa bilmirəm.

Şairin taleyi qəmlə yoğurulub,
Kağızdır, qələmdir bir tək pənahı.
Mənə ağız dolu şair deyən qız,
Mən şeir yazmağı bilmirəm axı.

Sınıq taleyini, nakam bəxtini,
Qələmin ucunda əzdirir şair,
Doğru deyiblər ki bütün bəşərin,
Dərdini qəlbində gəzdirir şair.